**Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik**
AZ1108, Azərbaycan, Bakı şəhəri, İbrahimpaşa Dadaşov küçəsi, 260
Telefon : (+99412) 497-38-51   Faks : (+99412) 497-44-27
E-mail: **novbetchi@anama.gov.az**  Veb-sayt: **www.anama.gov.az**
https://www.facebook.com/anama.anama.180   https://twitter.com/ANAMA_gov_az

# 25 Sentyabr 2017-ci il tarixində Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) tərəfindən Xızı rayonunda aşkar olunmuş Partlamamış Hərbi Sursatlar (PHS) haqqında

## GÜNDƏLİK OPERATİV MƏLUMAT

Xızı rayonu ərazisində yerləşən Müdafiə Nazirliyin N saylı hərbi hissəsinin sursat anbarında baş vermiş partlayışla əlaqədar Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA), Fövqəladə Hallar Nazirliyinin və Daxili İşlər Nazirliyinın birgə keçirdiyi təmizləmə əməliyyatları barədə:

**25 Sentyabr 2017-ci il tarixində** yerli sakinlər tərəfindən daxil olmuş zənglərə əsasən Giləzi qəsəbəsi ərazisində 1 əkin sahəsinə və neft quyusunun ətrafına, həmçinin partlayış baş vermiş hərbi hissənin ətrafına baxış keçirilmiş, **260 ədəd partlamamış hərbi sursat (PHS)**, 88 ədəd partlamış-yanmış mərmi qalıqları və **1 191 kq yandırma** aşkar edilərək götürülmüş, nəticə etibarilə **108 500 kv.m (10.85 ha)** ərazi yoxlanılmışdır.

**Ümumiyyətlə, 30 gün ərzində 12 ev, 46 evin həyətyanı sahəsinə, 9 ferma ərazisinə, 34 əkin sahəsinə, 11 otlaq sahəsinə, 2 məktəb ərazisinə, 3 dəmiryolu xətininə, 1 rabitə qovşağına, 1 telestudio ərazisinə, 2 kənd qəbirstanlığına, 1 su kanalına, 1 istixanaya, 1 hərbi şəhərciyə, 1 kənd məscidinin yaxınlığına, su stansiyasına, Bakı-Novorossiysk neft kəmərin Xızı rayonundan keçən hissəsinə, neft quyusunun ətrafına, balıqçılıq və zeytunçuluq təsərrüfatına, eko-turizmin həyətyanı sahəsinə, dəniz sahilinə, taxıl anbarının yaxınlığına yol kənarına, Samur-Abşeron kanalı istismar idarəsinin Taxta körpü-Ceyranbatan kanalının içərisinə, ətrafına, dükerlərə baxış keçirilmiş, 10 199 ədəd partlamamış hərbi sursat (PHS), 4 215 ədəd partlamış-yanmış sursat qalıqları və 17 475 kq yandırma aşkar edilərək götürülmüş, nəticə etibarilə 39 230 088 kv.m (3 923.01 ha) ərazi yoxlanılmışdır.**

Bununla yanaşı, Xızı rayonun Giləzi qəsəbəsi, Sitalçay və Şurabad kəndləri ərazisində 5 983 nəfər yerli sakin arasında mina təhlukəsizliyinə dair maarifləndirmə təbliğatı aparılmışdır.



